https://doi.org/10.59849/3006-2403.2024.1.185

***Ülviyyə İSMAYILOVA***
***AMEA Gəncə Bölməsi***
***Nizami Gəncəvi Mərkəzi***
***E-mail: ulviyye.ismailova23@mail.ru***

# NİZAMİ YARADICILIĞINDA ELM

*Açar sözlər:* Elmi fikirlər, şüalanma, harmoniya

XII əsr Azərbaycanın siyasi və hüquqi fikri tarixinə dünya ədəbiyyatının qızıl fondunu öz yaradıcılığı ilə zənginləşdirmiş Nizami Gəncəvi əsri kimi daxil olmuşdur.

Nizaminin elmi idrakına, təfəkkür dünyasının sirlərinin qismən açılmasına yanaşılmış, şairin özü demiş dünyanin sirrini hələ heç kim ondan sormadığına görə o da hələ indiyə kimi cavab verməmişdir.

Nizami təbiətdə, cəmiyyətdə və ümumiyyətlə desək, materiyada gedən prosesləri dərindən dərk etməklə onların harmonik qanuna tabe olaraq daimi hərəkətdə, dəyişmədə və vəhdətdə olmalarının şərhini vermişdir. O, elmi fikirlərini şərh edərkən milli cazibə ilə mənəvi cazibəyə üstünlük vermişdir.

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin,

Eşqsiz olsaydı xilqətin canı
Dirilik sarmazdı böyük cahanı.

Nizami XII əsrdə təbiət elmlərinə dair elmi fikirlər söyləmişdir ki, həmin dövrdə elm aləminə o sahədə çox şeylər məlum deyildi.

Nizaminin hələ XII əsrdə radioaktivliyə dair (yəni bəzi materialların özündən təbii şüa buraxması) söylədiyi fikir daha çox maraq doğurur. Elmdə məlumdur ki, radioaktivliyi ilk dəfə (1896-cı ildə) Fransız fiziki A.A.Bekkerel (1852-1908) kəşf etmişdir. Onu da qeyd etmək lazımdır ki, Avropada Nizami ilə ilk tanış olanlardan biri də fransız şərqşünası d`Erblodur. Unutmayaq ki, Nizaminin ən qədim əlyazmaları A.A.Bekkerlinin vətəninin paytaxtı Parisin milli kitabxanasında saxlanılır. Deməli Nizaminin A.A.Bekkerlinin sələfi olması heç də təsadüf deyildir. Çünki, fransızlar Şərq ədəbiyyatı ilə ilkin maraqlananlardan olmuşlar.

Məqsədim radioaktivlik hadisəsini geniş şərh etmək deyildir. Diqqəti cəlb edən odur ki, XII əsrdə uran filizinin təbii olaraq özündən çox böyük təsir gücünə (hətta öldürücü) malik olan şüalar buraxması Nizami Gəncəviyə məlum imiş. Şair özünün “İsgəndərnamə” əsərinin “İsgəndərin peyğəmbərliyə səfəri” bölməsində həmin şüalanma hadisəsini o, belə qələmə alır:

Rəngbərəng daşlarla doludur hər yan:
Qapqara, sapsarı, gömgöy al-əlvan.
O əlvan daşları görəndə insan
Sevinər fərəhdən, gülər şadlıqdan.
Qəhqəhə çəkərək güldükcə gülər,
O, qədər gülər ki, gülməkdən ölər,
Misqaldan az olsa daşın çəkisi,
Oyatmaz insanda o ölüm hissi
Qocanın sözləri düz, doğru çıxdı,
Daşlar çoxlarını torpağa yıxdı.

Bez ilə bükərək bərk sarısınlar,
Üstündən çox qalın şeylər salsınlar.
Eləcə sarıqlı qoyub açmadan,
Buyurdu daşları yerə tökdülər.
Onlardan bir böyük bina tikdilər.
O sarı torpaqdan palçıq tutaraq,
Bayırdan çəkdilər hasara suvaq.
Hasar içəridən çılpaq divardı.
Çürüyüb sarğılar töküldü yerə.
Yeddi rəng gövhərlər çıxdı zahirə
Binalar zahirdən vermirdi ziyan,
Çünki suvaq vardı sarı torpaqdan
Geyimi soyundu daxildən hasar,
Ölürdü oraya ayaq basanlar.
O hasar daşları bir adam görcək.
Alırdı canını ahənrübatək.

Ölkəmiz üçün Çernobıl hadisəsi bunu təsdiq etmirmi? Şair çox aydın yazır ki, o ölüm şüaları yayan daşlardan danışarkən insanlar gözlərini bağlamaqla qalın parça geyib, həmin daşları bez (karbas) adlı parçaya bükdükdən sonra üstündən bir neçə qat qalın parça salaraq daşımışlar. İsgəndərin göstərişi ilə daşlar binaya həmin parçada bükülü şəkildə hörülür və binanı eşikdən həmin daşlar olan məkandan gətirilən torpaqla (gillə) suvamışlar. Bina içərisindən suvanmadığından bir müddət keçəndən sonra daşların büküldüyünü müşahidə etmişlər. Hər kəs adi geyimlə o binanın içərisinə daxil olsa, şüaların təsirindən o saat ölərmiş. Buradan aydın olur ki, bina xaricdən sarı torpaqla suvandığına görə binanın eşiyində duranlara təsir etməyir.Çünki sarı torpaqda olan suvaq həmin şüaları udur, bayıra buraxmır.

Nizami onu da çox gözəl, elmi şəkildə izah edir ki, daşlar bir və ya bir neçə misqal olduqda o qədər də təsirli olmur. Ancaq bir və ya bir neçə batman olduqda isə çox güclü şüalanmaya malik olub insana da öldürücü təsir edir. Aydın məsələdir ki, ən böyük maqnit mənbəyi insana heç bir öldürücü təsir etmir. Şair "alırdı canımı ahənrübatək" dedikdə maqniti yox, çox aydın görünür ki, elektrik cərəyanını nəzərdə tutmuşdur. Çünki insanı elə tez məhv edən yalnız elektrik cərəyanıdır. Bir daha unutmayaq ki, "Xosrov və Şirin"də şair elektrik və maqnit hadisələrini çox gözəl şərh etmişdir:

O şeylər ki, bizə lap aşkardır
Orda da gizli bir xəzinə vardı [1;2].

Nizamiyə görə birgə yaşayışın bütün faciəsi bundadır ki, insanlar öz ehtiraslarını idarə etməyə öyrənməmişlər. Elə bir əməkdaşlıq forması yarada bilməmişlər ki, birgə əməyin məhsuldarlığı bərabər bölünsün, cəmiyyət üzvlərinin instinktləri eyni səviyyədə ağıl çərçivəsində ödənilsin. Beləliklə, şair yer üzündəki ədalətsizliyin fəlakət və münasibətlərin kökünü sosial bərabərsizlikdə görür. Elə bir vəziyyətdə ki, cəmiyyət üzvlərinin bir qismi öz təbii istəklərini həddən artıq boğmağa məcburdur. Azlıq təşkil edən başqa bir qismi isə birincilərin hesabına öz həvəs iddialarından doymaq bilmir. Bununla da Nizami məntiqi şəkildə öz təlimini yeni səviyyədə-siniflər, sosial təbəqələr arasında Harmoniya probleminə gəlib çıxır. Şairin fikrincə cəmiyyətin fəaliyyətini təmin edən dövlət mexanizmi bu harmoniyanın əldə olunmasına, beləliklə cəmiyyət həyatını gözlənilməz sarsıntılardan və kataklizmlərdən qorumağa yönəltməlidir. Əks halda cəmiyyət sosial-sinfi ziddiyyətlərin dağıdıcı stikiyasına məruz qalacaq, məhvə sürüklənəcəkdir.

Nizami zaman və məkanda harmoniya görmək istəyirdi. Şairə görə müxtəlif ölkələrdə baş vermiş böyük nəcib hərəkətlər, hadisələr bütün yerlərdə və bütün dövrlərdə yaşamalıdır. "İsgəndərnamə"dəki şüurlu anaxronizmlər, hadisələrin irəli və geri çəkilməsi məhz bu mövqeyin nəticəsi kimi qiymətləndirilməlidir. Misal üçün İsgəndərin ətrafında onun dövründə yaşamış filosoflar vardı. İsgəndərin ideal harmoniya rəmzi kimi götürən şair başqa cür edə bilməzdi. Eyni sözləri heç vaxt Azərbaycanda olmamış İsgəndərin bura gətirilməsi və onun rusları darmadağın etməsi haqqında da demək olar [8;6].

Bütün böyük mütəfəkkirlər kimi Nizami də insan yaşayışının mənası üzərində düşünərkən həyat və ölüm probleminə gəlib çıxır. Şair bu iki ayrılmaz məfhumun harmoniyasının əldə etməyə dair öz baxışlarını irəli sürür. Bu məsələdə onun mövqeyi bir çox cəhətdən islama əsaslanır [6;3].

Məlumdur ki, islam fəlsəfəsinə görə həyat dəyişkən, ötəri və fanidir. Ömür insana yalnız ona görə verilir ki, o biri dünyadakı həqiqi və əbədi həyata hazırlaşsın. Məşhur kəlama görə "Dünya axirətin tarlasıdır". Bu mövqeyi qəbul edən Nizaminin fikrincə, ölüm heç vaxt həyatı mənasızlaşdırmır. Tərki-dünya Nizamiyə yaddır. Şair belə hesab edir ki, insan öz möminliyi, xeyirxahlığı,başqalarına yardımı, özgələrin dərdinə şərik olması bir sözlə yalanı, əyriliyi, rüşvəti və s. naqislikləri özünə yaxın buraxmamaqla o biri dünyada xoşbəxt və qayğısız həyat sürmək hüququ qazanmalıdır. Belə olduqda ölüm insanı qorxutmur, vahiməyə salmır, əksinə, insan həyatla sakit heç bir narahatlıq keçirmədən təbəssümlə vidalaşır. Sözü ilə işi, fikirləri ilə həyat tərzi arasında fərq olmayan Nizami özü də ömrünü bu cür yaşamış, əcəl anında həyatdan beləcə ayrılmışdır. "İsgəndərnamə"nin sonunda verilən aşağıdakı misraları bir də xatırlayaq:

Yığdı dostlarını edərkən səfər,
Verdi köçəcəyi yollardan xəbər,
Gülərək söylədi, "Ümidim var
Keçər günahımdan o pərvərdigar.
Bizimçün çəkməyin boş yerə zəhmət.
Siz qalın, bizləri gözləyir cənnət!".
Belə danışarkən getdi yuxuya,
Heç oyaq deyilmiş dünyada guya....

Nizaminin insandan tələbi böyük və çətindir. Dünyanın hiylələrinə, hücumlarına qarşı vuruşmaq özünü heç olmaqdan, unudulmaqdan qorumaq üçün insanın özünü dərk etməsidir. İnsan həyatda ancaq açıq düşmənlə yox, həm də gizli, zahirən ona gülən, dostluq göstərən, bəzəkli görünüb cilddən-cildə düşən düşmənlərlə qarşılaşır. Şair əsərlərinin adamlarının zamanın əxlaqına, baxışlarına, meyllərinə qarşı döyüşə çağırır. İnsanın vəzifəsini bunda görür.

İntibahın ən görkəmli nümayəndələrindən biri kimi Nizami Gəncəvi özünü dərketmənin əsas rolunun ağılın insana arxa olduğunu yazır. Ağıllı adamı mələk adlandırır, ağıllı insanda yerlə göyün birləşdiyi fikrini irəli sürür.

İnsana arxadır onun kamalı
Ağıldır hər kəsin dövləti, malı.
Kim ki, yetişmədi ağıldan bara,
Oxşar insan sifət əjdahalara.
Zirək adam, inan, mələkdir,
Zirəklik gözəldir, əcəbdir, gerçək.

Belə nəticəyə gəlmək olar ki, Nizaminin yaşadığı dövr böyük elmi kəşflər, ağıl və idrak dövrü idi. Əsərlərində əmək adamlarının parlaq surətini yaradaraq əməyi, zəhməti insan üçün

ISSN: 3006-2403

ən böyük məziyyət saymışdır. İnsan əməyi cücərərsə, onun nəticələri bütöv nəsilləri bəhrələndirərsə, onda İnsan, onun əməlləri ölməz olaraq qalacaq.

Şeyx Nizaməddin İlyas Yusif oğlu Nizami Gəncəvi həqiqəti Quranda, İslam dinində görən, öz əqidəsinin doğruluğuna, paklığa çağıran bir mürşid, bir müəllim olmuşdur.

Nizami ürəklərdə yaşayır. Deməli yeri cənnətdir.O, bizim keçmişimiz, bu günümüz və gələcəyimizdir [5;6]. Dünya durduqca o yaşayır və yaşayacaqdır. O, bizim cahana işıq saçan sönməz bir günəşdir.

ƏDƏBİYYAT

1. Əlimuxtar Muxtarov.Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda .”Elm” nəşriyyatı. Gəncə.2021.
2. Gəncə dahi Nizamini 850 il cəmi dünya ilə yaşatdı. “Gəncənin səsi” №101.1 dekabr 1992. s.2.
3. Xəlil Yusifli.Nizami lirikası və..... “Elm” nəşriyyatı. Gəncə 2021.
4. Xəlil Yusifli.Nizaminin lirikası. “Elm və təhsil” Bakı-2022.
5. İbrahim İsgəndərov.Dahi şairə el məhəbbəti. “Gəncənin səsi” №190. 29 sentyabr.s.3.
6. L.Qoldenşteyn. Xəmsə motivləri əsasında. “Gəncənin səsi” №141. 24 iyul 1990.s.5.
7. Nizami Gəncəvinin həyatı və yaradıcılığı. Sənətkarın elmi pasportu-25. Bakı, “Elm” 2021.
8. Rüstəm Əliyev. Nizami; dövrü, şəxsiyyəti və təlimi. “Gəncənin səsi” № 119. 22 iyun 1990. s.3.”Kommunist qəzeti” №135.
9. Sabir Həsənov. Nizami Gəncəvi Bekkerlinin sələfidir. “Gəncənin səsi” № 213, 1 noyabr 1990. s.2.

***Улвия ИСМАИЛОВА***

## НАУКА В ТВОРЧЕСТВЕ НИЗАМИ

***РЕЗЮМЕ***

*Ключевые слова:* научные идеи, радиация, гармония

В статье исследуется бессмертная сила поэзии Низами, высокие человеческие ценности, такие как справедливость, доброта и человечность, в философии мудрости, профильтрованной через его талантливое и неординарное мышление.

Поэтические стихи и научные идеи из сердца этого гениального художника нашей страны стали нашими ближайшими помощниками в работе нравственно-эстетического воспитания, которую мы проводим сегодня.

***Ulviyya İSMAİLOVA***

## SCIENCE IN NIZAMI’S WORK

***SUMMARY***

*Key words:* scientific ideas, radiation, harmony

The article explores the immortal power of Nizami's poetry, high human values such as justice, kindness, and humanity in the philosophy of wisdom filtered through his talented and unusual thinking. Poetic verses and scientific ideas from the heart of this genius artist of our country have become our closest assistants in the work of moral aesthetic education that we carry out today.

***Daxil oldu: 16 05.2024-cü il***